**AZƏRBAYCAN RESPUBLİKASI**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№289/2** **25 avqust 2017-ci il**

## Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş barədə

Azərbaycan Respublikasında "Auditor xidmətinin inkişaf konsepsiyasında (2012-2020-ci illər)" həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının təqvim planının 7-ci "Auditdə şəffaflığın artırılması, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə" bölməsinə, Auditorlar Palatasının 2017-ci il üzrə iş planının 1.14-cü "Auditor fəaliyyəti ilə əlaqədar proqramlar, təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndinin icrasına dair təsdiq edilmiş Plan-proqramın 2-ci "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətləri dəyərinin tövsiyə olunan minimum hədlərdən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstərişin hazırlanması" bəndinin icrası ilə əlaqədar olaraq Palatanın Şurası yanında Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (Ü.Fətiyev) tərəfindən təqdim olunmuş materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş" təsdiq edilsin (əlavə olunur).
2. Auditin keyfiyyətinə nəzarət şöbəsinə (Y.Namazəliyev), Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli), Palatanın Şurası yanında Keyfiyyətə nəzarət komitəsinə (V.Kərimov) və Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Ü.Fətiyev) tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş"dən irəli gələn vəzifələrin yerinə yetirilməsini təmin etsinlər.
3. Auditor təşkilatları və sərbəst auditorlara tapşırılsın ki, auditor xidmətlərinin göstərilməsi zamanı Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə sözsüz əməl olunmasını təmin etsinlər.
4. Bu metodik göstərişin əsasında aparılmış tədqiqatların nəticələri auditor təşkilatları və sərbəst auditorların reytinq səviyyəsi müəyyən edilərkən nəzərə alınsın və auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemində nəzərdə tutulmuş müddəaların tətbiqi üçün əsas kimi qəbul edilsin.
5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş"in "Audit.Qanunvericilik və normativ sənədlər" toplusunun nəşr ediləcək 9-cu cildinə daxil edilməsini təmin etsin.
6. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Palatanın Şurası yanında Dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin sədri Ü.Fətiyevə tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş"ə dair 2017-ci ilin IV rübündə seminarın keçirilməsini təmin etsinlər.
7. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, bir həftə müddətində "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidmətlərinin dəyərinin tövsiyyə olunan minimum hədlərindən aşağı qiymətə bağlanmış audit müqavilələrinin tədqiqi üzrə metodik göstəriş"in auditor təşkilatları və sərbəst auditorlara göndərilməsini və Palatanın internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**